***44 gün ərzində dörd dəfə Türk Şurasının baş katibi adından rəsmi bəyanat verildi. Biz bunu ... çox yüksək qiymətləndiririk. Türk Şurası müharibə dövründə bizi hamıdan çox dəstəkləyən təşkilatdır. Biz başqa təşkilatlara – İslam Əməkdaşlıq Təşkilatına da, Qoşulmama Hərəkatına da təşəkkür edirik. Bu müddətdə bizi dəstəkləyən ölkələrə təşəkkür edirik.***

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının baş katibi Bağdad Amreyevi videoformatda qəbul edərkən söylədiyi fikirlərdən*
*Bakı, 19 yanvar 2021-ci il*

***Təməli 2009-cu ildə Türk dünyasının ən qədim şəhərlərindən olan Naxçıvanda qoyulmuş Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası – TDƏŞ qardaş xalqların əməkdaşlığının daha da yaxınlaşdırılması və qarşılıqlı münasibətin dərinləşdirilməsi istiqamətində çox böyük rol oynamışdır və bu gün də oynamaqdadır. Azərbaycan, Türkiyə, Qazaxıstan və Qırğızıstanın təşəbbüsü ilə keçirilən ilk sammit Naxçıvan müqaviləsi ilə yadda qalmışdır. 2018-ci ilin aprelində Özbəkistan bu quruma qatılmışdır. Həmin ilin sonlarından Macarıstan da müşahidəçi dövlət kimi sammitlərdə iştirak edir.***



# "Qarabağ türk dünyasının inkişaf etmiş bölgələrindən birinə çevriləcək"

Azərbaycan Türk Şurasının ən fəal üzvlərindən olduğuna görə qurumun bir çox tədbirləri Bakıda keçirilir. Sentyabrın 10-da ölkəmizin paytaxtında keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının iqtisadiyyat nazirlərinin görüşü və Türk Biznes Forumu da Bakının Türk Şurası üçün nə qədər dəyərli olduğunun və TDƏŞ rəhbərliyinin Azərbaycana verdiyi önəmin göstəricisidir.

Xəbər verildiyi kimi, Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov sentyabrın 10-da Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının baş katibi Bağdad Amreyevin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb. Xüsusilə vurğulanıb ki, ötən müddət ərzində Türk Şurası güclənərək vacib beynəlxalq quruma çevrilib. Bu fakt bizim üçün xüsusilə dəyərlidir. Çünki Azərbaycan Türk Şurasına üzv ölkələrlə həm ikitərəfli formatda, həm də beynəlxalq təşkilatlar çərçivəsində səmərəli əməkdaşlıq edir.

Xatırladaq ki, Türk dünyası təkcə ötən ilin sentyabrından bəri deyil, ümumiyyətlə, Azərbaycan ərazilərinin işğalda olduğu bütün müddətdə ölkəmizin suverenliyinə və ərazi bütövlüyünə hörmətlə yanaşıb, bu tarixi ədalətsizliyin aradan qaldırılması üçün apardığımız mübarizədə yanımızda olub. Eləcə də, Vətən müharibəsi zamanı ölkəmizə verilən siyasi-mənəvi dəstəyə görə biz Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına və təşkilata üzv dövlətlərə dəfələrlə təşəkkür etmişik.

Ölkəmizin Baş naziri bildirib ki, Azərbaycan Respublikası Prezidentinin təşəbbüsü ilə ötən il Türk Şurasının koronavirus pandemiyası ilə mübarizəyə həsr olunmuş fövqəladə Zirvə görüşü türkdilli dövlətlərin həmrəyliyinin növbəti bariz göstəricisi kimi dəyərləndirilir. Üstəlik, Bakıda keçirilən forum Azərbaycanın işğaldan azad edilmiş ərazilərin bərpasına həsr olunduğuna görə xüsusilə əhəmiyyətlidir.

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının iqtisadiyyat nazirlərinin görüşü bu qurumun 10-cu iclası kimi yaddaşlarda qaldı. Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov qeyd etdi ki, milli və regional iqtisadiyyatın dəstəklənməsi istiqamətində tərəfdaşlığın və iqtisadi əlaqələrin daha da möhkəmləndirilməsi tərəfdaş ölkələrin hər biri üçün mühüm əhəmiyyət kəsb edir.

Azərbaycanda Türk Şurasına üzv ölkələrlə ticarət, investisiya əməkdaşlığı, iş adamları arasında əlaqələrə böyük önəm verilir. Azərbaycanın TDƏŞ-ə üzv ölkələr və Macarıstanla ticarət dövriyyəsinin həcmi 2,6 milyard dollar olmaqla, ölkəmizin xarici ticarət dövriyyəsindəki payı təxminən, 15 faiz təşkil edir. Təqdirəlayiq haldır ki, 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə, 2021-ci ilin yanvar-iyul aylarında Türk Şurasının üzv dövlətləri və Macarıstana qeyri-neft ixracı 75 faiz artıb.

Bu göstəricilərin daha da artacağı şəksizdir. Çünki nazirlər Türk Şurasına üzv ölkələr arasında ticarət və investisiya əlaqələrinə dair tədqiqat sənədinin, Azərbaycanın dəstəyi ilə "Türk Ticarət evi"nin konsepsiyasının hazırlandığı, Türk Ticarət və Sənaye Palatasının fəaliyyətinin təşviqini, Türk İnvestisiya Fondunun yaradılması istiqamətində mühüm irəliləyişlər əldə olunduğunu diqqətə çatdırıblar. Bütün bunlar isə qarşılıqlı əməkdaşlığın inkişafına yeni töhfələr verəcək.

Üstəlik, Azərbaycan tərəfi TDƏŞ-ə üzv ölkələri Ələt Azad İqtisadi Zonasının, sənaye zonalarının, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının imkanlarından faydalanmağa çağırır. Bundan başqa, Türkiyə və Azərbaycan arasında iqtisadi əlaqələrin inkişafına iki qardaş ölkə arasında imzalanan Preferensial Ticarət Sazişi də mühüm kömək edəcəkdir. Bu sənəd ticarət əlaqələrinin yeni müstəvidə genişləndirilməsinə və ölkələrimizdə rəqəmsallaşma prosesinin inkişafına təkan verəcək.

Nazirlərin görüşünün xüsusi əhəmiyyətlərindən biri də TDƏŞ-ə üzv ölkələrin dövlət başçılarının iştirakı ilə keçiriləcək Zirvə toplantısının iqtisadi gündəliyi, ticarət-iqtisadi əlaqələrin genişləndirilməsi, birgə iqtisadi layihələrin həyata keçirilməsinə dair imkanların araşdırılması barədə müzakirələr aparılması idi. Yəni dövlət başçılarının növbəti görüşündə ölkələrarası əməkdaşlığın daha geniş üfüqləri ilə tanış olacağıq.

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının iqtisadiyyat nazirlərinin görüşü çərçivəsində keçirilən biznes forumunun Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin bərpasına həsr olunması da bu qurumun bizim sabahımıza vermək istədiyi dəstəyin göstəricisi idi. M. Cabbarov qeyd edib ki, türkdilli dövlətlərlə qarşılıqlı maraqlara əsaslanan iqtisadi münasibətlər keyfiyyətcə yeni müstəvidə ildən-ilə daha da genişlənir. TDƏŞ-ə üzv dövlətlərlə uğurlu ticarət-investisiya əməkdaşlığı həyata keçirilir. 1995-ci ildən 2021-ci ilin 3 ayınadək olan TDƏŞ üzvü olan ölkələr Azərbaycan iqtisadiyyatına 13,5 milyard ABŞ dolları həcmində investisiya qoyub. Azərbaycan isə üzv ölkələrin iqtisadiyyatına 18,6 milyard ABŞ dolları sərmayə yatırıb.

*(ardı 4-cü səhifədə)*

# “Qarabağ türk dünyasının inkişaf etmiş bölgələrindən birinə çevriləcək”

*(əvvəli 1-ci səhifədə)*




Nəzərə çatdırılıb ki, Azərbaycanın əsas hissəsi və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin qurulmasındakı maneənin aradan qalxması ilə region ölkələrinin faydalana biləcəyi yeni avtomobil və dəmir yolu şəbəkələri formalaşdırılacaq. Hazırda Zəngəzur dəhlizinin reallaşdırılması istiqamətində fəal iş aparılır.

Azərbaycan rəsmisi fəxrlə yada salır ki, 44 günlük Vətən müharibəsi dövründə Türk Şurası Azərbaycana böyük dəstək vermişdir. Elə azad edilmiş ərazilərimizin bərpasında da Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv ölkələrin şirkətlərinin böyük marağı və bu şərəfli işdə Azərbaycanın yanında olmaq istəkləri göz qabağındadır. Ekspertlərin fikrincə, Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin bərpasına həsr olunmuş biznes-forumda tikinti, nəqliyyat-logistika, kənd təsərrüfatı, qida sənayesi, bərpa olunan enerji, yüngül sənaye, turizm, mədənçilik və digər sahələrdə fəaliyyət göstərən çoxsaylı iş adamının iştirakı türkdilli ölkələrin dostluq və qardaşlığının daha bir nümunəsidir.

Bu müstəvidə olan əməkdaşlığın gələcəyinə böyük ümidlər olduğunu qeyd edən Türk Şurasının baş katibi Bağdad Amreyev TDƏŞ-ə üzv ölkələrin Qarabağ bölgəsində görmək istədikləri və görə biləcəkləri işlər barədə ətraflı məlumat verib. Onun fikrincə, Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin bərpası türkdilli dövlətlərin ümumi işidir və Qarabağ türk dünyasının inkişaf etmiş bölgələrindən birinə çevriləcək.

***İttifaq MİRZƏBƏYLİ,***
***“Xalq qəzeti”***

Xalq qəzeti.- 2021.- 12 sentyabr.- S.1;4.